**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın**
**"Biznesə daxilolma" İşçi qrupunun iclasının**
**PROTOKOLU**

*Bakı şəhəri* *22 iyun 2026-cı il*

**İştirakçılar:**

1. *Vüsal Şıxəliyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi islahatların monitorinqi, koordinasiyası və qiymətləndirilməsi sektorunun müdiri, Komissiyanın Katibliyinin rəhbəri;*
2. *Samirə Musayeva - Dövlət Vergi Xidmətinin rəis müavini, "Biznesə daxilolma" İşçi qrupunun rəhbəri;*
3. *Hüsniyyə Abdullayeva - Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinin qeydiyyatı və uçota nəzarət baş idarəsinin rəis müavini, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
4. *Namiq Dərgahov - Dövlət Vergi Xidmətinin İqtisadi təhlil və proqnozların icrasına nəzarət baş idarəsinin rəis müavini, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
5. *Qismət Qurbanov - Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində rəqəmsallaşma və innovasiyalar idarəsinin rəisi vəzifəsini icra edən, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
6. *Sabir Rzayev - Xarici İşlər Nazirliyinin İqtisadi Əməkdaşlıq İdarəsinin müşaviri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
7. *Nizami Məmmədov - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsinin müdir müavini, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
8. *Toğrul Əcəlov - Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
9. *Samir Musayev - Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin Konsulluq məsələləri şöbəsinin müdiri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
10. *Sənan Şirinov – Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
11. *Həmid Əhmədov – Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, vəkil, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*
12. *Aytən Namazova - "Dentons Europe (Central Asia) Limited" şirkətinin Azərbaycan*

*Respublikasındakı filialının hüquqşünası, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**13.** *Roza Ramazanova – PWC şirkətinin baş məsləhətçisi, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**14.** *Təhminə İmanova - "BHM Hüquq Şirkəti" MMC-nin Korporativ və Maliyyə Hüququ Departamentinin meneceri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**15.** *Məmməd Balacanov - "Ernst & Young Holdings (CIS) B.V." şirkətinin Azərbaycan Respublikasındakı filialının Hüquq xidmətinin rəhbəri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**16.** *Telman Əliyev - "Caspian Energy Club"ın Sədri və qrupun Baş icraçı direktoru, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**17.** *Günel Quliyeva - "Caspian Energy Club International"ın İdarəedici direktoru, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**18.** *Rasim Mahmudov – "Caspian Energy Club"ın sədr müavini;*

**19.** *Şəbnəm Sadiq – "Deloitte" şirkətinin hüquq meneceri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**20.** *Rövşən Hacıyev – "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor müavini, "Biznesə daxilolma" İşçi qrupunun üzvü;*

**21.** *Fərqanə İbrahimova - Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinin qeydiyyatı və uçotu baş idarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatının təşkili şöbəsinin baş dövlət vergi müfəttişi, "Biznesə daxilolma" İşçi qrupunun katibi.*

**Dəvət olunanlar:**

**22.** *Nicat İmanov - Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi;*

**23.** *Şahin Məmmədov - Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin rəis müavini;*

**24.** *Nicat Həsənov - Dövlət Vergi Xidmətinin Rəqəmsal vergi inzibatçılığı baş idarəsinin rəis müavini.*

**İclasın gündəliyi:**

1. 17 mart 2026-cı il tarixdə Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı

müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi"ndə nəzərdə tutulan tədbirlər və qarşıda duran vəzifələrin təqdim edilməsi;

2. "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi" çərçivəsində tədbirlərin və biznesin təsis edilməsi prosesində əsas məqamların müzakirə edilməsi.

## İclasın gedişatı

22 iyun 2026-cı il tarixdə "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi" çərçivəsində görülmüş işlər və qarşıda duran vəzifələrin müzakirə edilməsi məqsədilə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Biznesə daxilolma" İşçi qrupunun üzvlərinin, məsul şəxslərin, hüquq və konsaltinq şirkətlərinin nümayəndələrinin iştirakı ilə video-konfrans formatında iclas keçirildi.

İşçi qrupun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva İşçi qrupun üzvlərini və dəvət olunan ekspertləri, İşçi qrupunun işinə cəlb olunmuş yeni üzvləri salamlayaraq "Biznesə daxilolma" İşçi qrupunun katibi Fərqanə İbrahimovaya iclasın səlahiyyətli olub-olmaması barədə müraciət etdi.

F. İbrahimova Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin effektiv icra edilməsi üçün müzakirələrin aparılması məqsədilə iclasa dəvət olunan üzvlərin **yarıdan çoxunun** iştirak etdiyini və iclasın səlahiyyətli hesab olunduğunu bildirdi.

İşçi qrupun rəhbəri, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva görüş iştirakçılarını salamlayaraq gündəlikdə olan məsələləri diqqətə çatdırdı.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev Dünya Bankı Qrupunun Azərbaycan üzrə apardığı qiymətləndirmələr barədə danışdı və hazırlanmış hesabatda ölkəmizin bu sahədə dünya üzrə qabaqcıl dövlətlər sırasında göstərildiyini qeyd etdi. O, bildirdi ki, hesabat müəyyən dövr ərzində aparılan islahatları əhatə etdiyindən biznesin qeydiyyatı sahəsində həyata keçirilən

islahatlar növbəti illərdə hesabatın hazırlanması zamanı nəzərə alınacaqdır.

DVX-nin rəis müavini Samirə Musayeva Dünya Bankının son hesabatında aparılmış qiymətləndirmə, əldə edilmiş reytinq balları barədə iclas iştirakçılarını məlumatlandırdı. 2026-cı il üzrə Yol Xəritəsi çərçivəsində həyata keçirilmiş işlər barədə məlumat verən DVX rəisinin müavini bildirdi ki, Ədliyyə Nazirliyi tərəfindən elektron apostil verilmiş xarici mənşəli sənədlərin tərcüməsinin distant qaydada notarial rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkil edilməsi məqsədilə müvafiq portalın yaradılması təmin edilib. Portalın yaxın həftələrdə istifadəyə verilməsi nəzərdə tutulur.

O məlumat verdi ki, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırılması zamanı sui-istifadə hallarının qarşısının alınması məqsədilə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanmışdır. Qanun layihəsi rəy bildirilməsi üçün Dövlət Vergi Xidmətinin müvafiq baş idarələrinə təqdim edilmişdir.

Bundan başqa, fəaliyyəti xüsusi qanunvericilik aktları ilə tənzimlənən hüquqi şəxslərin qeydiyyata alınması ilə bağlı digər dövlət orqanları tərəfindən verilən sənədlərin elektron qaydada qeydiyyat orqanına təqdim olunması üçün DVX ilə KOBİA-nın məlumat bazaları arasında elektron mübadilə məqsədi daşıyan texniki imkanın yaradılması istiqamətində işlər davam etdirilir.

Daha sonra, İşçi qrupun üzvləri olan Ədliyyə Nazirliyinin Ədliyyə sahəsində rəqəmsallaşma və innovasiyalar idarəsinin rəisi vəzifəsini icra edən Qismət Qurbanov və Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin Konsulluq məsələləri şöbəsinin müdiri Samir Musayev görülmüş işlər barədə məlumat verdilər.

Qismət Qurbanov bildirdi ki, Ədliyyə Nazirliyi tərəfindən elektron apostil verilmiş xarici mənşəli sənədləri müvafiq proqram vasitəsilə yoxlamaqla onların tərcüməsinin informasiya sistemi üzərindən notarius tərəfindən distant qaydada rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkil edilməsi məqsədilə müvafiq portalın yaradılması təmin edilmişdir. Portalın yaxın həftələrdə *proda* istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

İşçi qrupun üzvü, Xarici İşlər Nazirliyinin (XİN) Konsulluq idarəsinin Konsulluq

məsələləri şöbəsinin müdiri Samir Musayev "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna edilmiş dəyişikliklərdən irəli gələrək XİN tərəfindən "Konsul leqallaşdırılması" informasiya sisteminin təsis edilməsi və həmin sistem üzərindən təqdim olunan sənədlərin qeydiyyat orqanına göndərilməsinədək həyata keçirilən bütün zəruri işlərin yekunlaşdırılması üzrə görülmüş işlər barədə danışdı. O, vurğuladı ki, elektron informasiya sisteminin işləməsi üçün 37 diplomatik missiya uçun zəruri avadanlıqlar alınıb, hüquqi normativ sənədlər hazırlanıb, texniki təminat üzərində iş gedir. "Konsul leqallaşdırılması informasiya sistemi" haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərman Layihəsi vizalanması məqsədilə Xarici İşlər Nazirliyinin 08.05.2026-cı il tarixli 3-20-15/2-4-31972/2026 nömrəli məktubu ilə müvafiq dövlət qurumlarına təqdim edilmişdir. Yaxın günlərdə Layihənin Nazirlər Kabinetinə təqdim edilməsi nəzərdə tutulur.

İclasda 2026-cı il üzrə müvafiq Yol Xəritəsi ilə bağlı qarşıda duran vəzifələr, biznesin təsis edilməsi proseslərinin daha da yaxşılaşdırılması ətrafında fikir mübadiləsi aparıldı. Ekspertlər və konsaltinq şirkətlərinin nümayəndələri tərəfidnən biznesin qeydiyyatı sahəsində aparıla biləcək işlərlə bağlı təkliflər səsləndirildi.

İclasda iştirak edən "Deloitte" şirkətinin hüquq meneceri, "Biznesə daxilolma" İşçi qrupunun üzvü Şəbnəm Sadiq benefisiar mülkiyyətçi barədə məlumatlara dair "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna edilmiş dəyişikliklər və praktiki məsələlərin müzakirəsi üçün ayrıca görüş təklifi ilə çıxış etdi.

"Caspian Energy Club"ın sədri və qrupun Baş icraçı direktoru, "Biznesə daxilolma" İşçi qrupunun üzvü Telman Əliyev biznesin təsis edilməsi proseslərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə müvafiq görüşlərin təşkil edilməsini tövsiyə etdi və ixrac və idxal sahəsində fəaliyyət göstərən şirkətləri, dövlət qurumlarını, beynəlxalq təşkilatları və biznes ekspertlərini bir ayara gətirən beynəlxalq platforma olan "AZEXİM FORUM"unun mahiyyəti və fəaliyyəti barədə geniş məlumat verdi.

"Caspian Energy Club"ın sədr müavini Rasim Mahmudov kommersiya subyektlərinin depozit hesablarında olan vəsaitlərin sosial ödənişlər üçün istifadə imkanları məsələsinə münasibət bildirilməsini xahiş etdi.

Məsələyə münasibət bildirərək, S. Musayeva mövzunun biznes mühiti üçün vacib olduğunu qeyd etdi və bildirdi ki, bu istiqamətdə hazırlanan layihə 2027-ci ilin büdcə zərfində öz əksini tapmışdır. Layihənin hökumət müzakirələrində qəbul olunduğu təqdirdə, 1 yanvar 2027-ci il tarixdə qüvvəyə minməsi nəzərdə tutulmuşdur.

Yekunda V. Şıxəliyev iclasda aktual məsələlərin müzakirə edilməsi üçün iclas iştirakçılarına təşəkkür etdi, Yol Xəritəsi çərçivəsində icra olunacaq tədbirlərin biznes mühiti üçün xüsusi önəm təşkil etdiyini bir daha vurğuladı.

İşçi qrupun rəhbəri S. Musayeva İşçi qrupun üzvlərinə və hüquq/konsaltinq şirkətlərinin nümayəndələrinə maraqlı diskussiyalara görə təşəkkür etdi, tədbirlərin icrasının sürətləndirilməsi məqsədilə bütün iclas iştirakçılarını sıx əməkdaşlıq etməyə dəvət etdi və olduğu təqdirdə zəruri təkliflərin təqdim olunmasını tövsiyə etdi.

**Qərara alındı:**

1. "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi" çərçivəsində görülmüş işlər və iclasda müzakirə olunan məsələlər barədə məlumatlar İşçi qrupun bütün üzvlərinə təqdim olunsun, həyata keçirilən tədbirlər üzrə İşçi qrupun üzvləri tərəfindən təkliflər olduğu təqdirdə İşçi qrupun katibinə təqdim edilsin (F. İbrahimova, İşçi qrupun bütün üzvləri).

2. "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2026-cı il üzrə Yol Xəritəsi"ndə nəzərdə tutulan tədbirlərin icrası sürətləndirilsin və məsul orqanların nümayəndələrinin birgə fəaliyyəti həyata keçirilsin (İşçi qrupun bütün üzvləri).

3. Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının təşviq etdiyi Elektron Apostil Proqramına uyğun olaraq elektron apostil verilmiş xarici mənşəli sənədləri müvafiq proqram vasitəsilə yoxlamaqla onların tərcüməsinin informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması ilə bağlı texniki imkanın yaradılması istiqamətində Yol Xəritəsində nəzərdə tutulan tədbirin icrası sürətləndirilsin (S. İsmayılov, Q. Qurbanov).

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsi və xarici ölkələrdə Azərbaycan Respublikasının konsulluqları tərəfindən rəsmi sənədlərin leqallaşdırılmasının həyata keçirilməsi məqsədilə Xarici İşlər Nazirliyinin "Konsul

leqallaşdırılması" informasiya sisteminin təsis edilməsi və leqallaşdırılmış sənədlərin tərcüməsinin "Elektron notariat" informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkili üzrə proseslər xəritəsinin hazırlanması və bu məqsədlərlə proqram təminatlarının yaradılması ilə bağlı Yol Xəritəsində nəzərdə tutulan tədbirin icrası sürətləndirilsin (T. Babayev, S. Musayev).

**İmzalar:**

**İşçi qrupun rəhbəri** Samirə Musayeva

**İşçi qrupun katibi** Fərqanə İbrahimova